Ədalət .- 2025.- 7 mart(№9).- S.8.

# “Xankəndi”

”Ədalət”in oxucuları, eləcə də Azərbaycanın ədəbi mühiti, yazıçı-publisist, araşdırmaçı Vasif Quliyevin imzasını yaxşı tanıyır.

Elə buradaca vurğulayım ki, 1988-ci ildən bu günə qədər Qarabağın tarixinin ədəbiyyatının öyrənilməsində, araşdırılmasında ən böyük haqqı olan ziyalılarımızdan biri məhz Vasif Quliyevdir.

Mənə görə o, Qarabağda haqqı olan ziyalımızdır. Çünki bütün həyatını arxivlərə, tarixə və Qarabağa həsr edibdir.




Onun 2023-cü ilin sonlarında ”Şuşa qalası” (şəhərin yaranması) adlı kitabı işıq üzü görmüşdür. 9 dildə çap olunan və ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın Tədbirlər Planının 3-cü prioritet istiqamətinin layihəsi çərçivəsində hazırlanan bu kitab böyük maraqla qarşılanmışdı.

Məhz həmin layihənin davamı kimi bugünlərdə Vasif Quliyev ”Xankəndi” kitabını da ədəbi ictimaiyyətə təqdim edibdir. Kitab ”Şuşa qalası” kitabı kimi 9 dildə çapa təqdim olunub. Artıq 3 dildə çap olunmuş versiya oxucuların ixtiyarına verilibdir.

Kitabda əsas məqsəd Xankəndinin kimə aid olduğunu, kimin tərəfindən salındığını və bütövlükdə Xankəndi barəsində müfəssəl, amma hər kəsin qəbul edə biləcəyi bilgilərlə zəngindir. Kitaba əlavə edilmiş xəritələr, portretlər, özü-özlüyündə bu qədim yurdun sözün məcazi mənasında həm də doğum şəhadətnaməsidir.

Çünki Pənahəli xanın, İbrahim xanın və buradakı dövrünə aid xəritə və şəkillərin özləri oxucu ilə ünsiyyət qurmaq, özünü təqdim etmək qabiliyyətindədir.

Göründüyü kimi, dəyərli həmkarımız, yazıçı-publisist, araşdırmaçı Vasif Quliyev bu dəfə də bizi öz yaradıcılıq uğuru ilə sevindirə bilibdir. Uğurların tükənməsin, Vasif Quliyev!

Əbülfət